**UOT 32**

# LİDERLİKDƏ ŞƏXSİYYƏTİN ROLU: SİYASİ TƏLİMLƏRDƏKİ YANAŞMALAR VƏ PANDEMİYA DÖNƏMİ REALLIQLARININ TƏHLİLİ

**Seymur Talıbov**
hüquq üzrə fəlsəfə doktoru
Naxçıvan Dövlət Universiteti
seymur.talibov@gmail.com
DOI:10.30546/ifs.2022.1(38).14

**Xülasə.** Məqalədə liderlikdə şəxsiyyətin roluna siyasi təlimlərdə mövcud olan təsəvvürlər və pandemiya dönəmində meydana çıxan yeni siyasi reallıqlar kontekstində nəzər salınıb. "Xasiyyətlər təlimi", situasion təlim, transformasiya təlimi və dəyərlər təlimi çərçivəsində liderlikdə şəxsiyyətin rolu haqqındakı təsəvvürlər analiz edilir. Onlar üçün ortaq olan məqamların aydınlaşdırılmasına çalışılır. Əldə edilən qənaətlərin fonunda müəllifin problemin tədqiqinə yanaşmasını ifadə edən başlıca prinsip formalaşdırılır. Bunun üçün "siyasi idarəetmə və informasiya interfeysi" anlayışı daxil edilir.

Məqalədə göstərilir ki, "siyasi idarəetmə və informasiya interfeysi" lider-ətraf mühit qarşılıqlı münasibətlərinin ortaq sahəsidir. Məhz burada konkret zaman-məkan kontiniumunda yeni siyasi reallıqlar yaranır. Onlar, faktiki olaraq, liderlikdə "yeni mənaları" ifadə edirlər. Müəllif müasir mərhələdə, o cümlədən pandemiya və ondan sonrakı dönəmdə şəxsiyyətin liderlikdə rolu məsələsinə bu anlayış prizmasında yanaşmanı daha doğru sayır. Fikrini əsaslandırmaq üçün qlobal miqyasda geosiyasi və siyasi situasiyanın və həmin kontekstdə irəli sürülən bir sıra nəzəri modellərin siyasi-nəzəri təhlilinə yer ayırır. Vurğulanan aspektdə Cənubi Qafqaz liderlərinin fəaliyyətinə liderlikdə şəxsiyyətin rolu kontekstində baxılır.

Elmi məqsəd liderlikdə şəxsiyyətin rolunun müasir mərhələnin geosiyasi və siyasi özəlliklərinə, o cümlədən pandemiyanın yaratdığı yeni situasiyaya diqqət yetirərək, nəzəri analiz aparmaqdan ibarətdir.

**Metodologiya.** İnteqrativ və fənlərarası metodologiyaların sintezindən istifadə edilib.

**Metod.** Şəxsiyyət-ətraf mühit qarşılıqlı təsirlərini sistem formasında analiz etməyə imkan verən inteqrativ metod tətbiq edilib.

**Elmi yenilik.** Liderlikdə şəxsiyyətin roluna yeni yanaşmalar kontekstində "siyasi idarəetmə və informasiya interfeysi" anlayışını daxil edirik. "Siyasi idarəetmə və informasiya interfeysi" dövlət başçısı olmaqla liderliyi uzlaşdıra bilən şəxsiyyətlə bütövlükdə toplumun qarşılıqlı əlaqələrinin ümumi xarakterini formalaşdıran yeni siyasi reallıqlar ("yeni mənalar") zonasıdır. Hesab edirik ki, bu zonada siyasi liderlikdə şəxsiyyətin rolunun daha konkret mənzərəsi yaranır.

**Açar sözlər:** lider, şəxsiyyət, qlobal siyasət, pandemiya, interfeys, yeni siyasi reallıqlar, yeni mənalar, pozitiv siyasi lider, transformasiya.

**Giriş.** Siyasi lider və siyasi liderliklə bağlı elmi-nəzəri təlimlərin XIX əsrin ikinci yarısından formalaşması, onlarda şəxsiyyətin rolu məsələsinə özünəməxsus siyasi-tarixi məzmun verib. Bütövlükdə aydındır ki, liderliklə bağlı istənilən təlimdə şəxsiyyət mövzusu mütləq surətdə mövcuddur. Çünki problemin mahiyyəti, məzmunu, funksional özəlliyi və məqsədləri bunu tələb edir: lider şəxsiyyətlərdən yaranır və əksi də doğrudur – şəxsiyyətlər əsl lider ola bilirlər. Deməli, faktiki olaraq, liderlikdə şəxsiyyət faktoru bu fenomenin (liderliyin) daxili təbiətində yer alıb. Aristotelin təbirincə desək, şəxsiyyət - liderliyin təbii olaraq özünün kamilliyinə qovuşduğu varlıqdır. Liderlik şəxsiyyətdə özünün yüksək səviyyəsinə çata bilir və bu məqamda özyetərli olur. Və ya şəxsiyyət yüksək səviyyədə olmasa, liderlik natamam qalır. Şəxsiyyətlə liderliyin bu immanent qarşılıqlı əlaqəsi, bir-birini tamamlaması və şərtləndirməsi, vəhdət təşkil etməsi özlüyündə liderlik

haqqında təlimlərdə şəxsiyyətin yeri və rolu məsələsini nəzəri aspektdə çox aktuallaşdırır. Bu mövzunun siyasi-nəzəri dərki, sadəcə, bir zərurətdir.

Burada nəzəri və metodoloji baxımdan əhəmiyyəti olan bir incə məqamı vurğulamaq yerinə düşərdi. Bütövlükdə şəxsiyyətlə liderliyin qarşılıqlı münasibətləri bir sıra faktorları özündə ehtiva edir. Burada məsələni ümumi halda şəxsiyyət-lider münasibətlərində qarşılıqlı əlaqələr müstəvisində analiz etmək olar. Bu cür yanaşmada əsas diqqət liderlikdə şəxsiyyətin roluna deyil, bu iki anlayışın siyasi-nəzəri aspektdə qarşılıqlı münasibətləri, əlaqələri və hər ikisinin funksional özəllikləri təhlil edilir. Həmin çərçivədə şəxsiyyətin interaktivliyi kənarda qalır və onun liderlikdə rolu aktiv fəaliyyət çərçivəsində araşdırılmır. Şəxsiyyətin liderlik kontekstində rolu məsələsi isə, artıq, bu anlayışa fərdin aktiv siyasi fəaliyyəti prizmasında tədqiqi yanaşmanı tələb edir. Biz məhz bu anlamda şəxsiyyətin liderlikdəki roluna təhlili yanaşırıq.

Digər məqam kimi onu vurğulayaq ki, şəxsiyyətin liderlikdə oynadığı rolun nəzəri dərkində siyasi təcrübə, liderin keçdiyi fəaliyyət yolu və müxtəlif situasiyalarda əldə etdiyi təcrübədən faydalanmaq bacarığı da tədqiqat hədəfi olmalıdır.

Problemin bizim üçün çox əhəmiyyət kəsb etməsi həm də Azərbaycanda liderlikdə şəxsiyyətin yeri və rolu məsələsinin çox önəmli olması ilə sıx bağlıdır. Məsələ ondan ibarətdir ki, Azərbaycanın dövlətçilik tarixində böyük siyasi liderlər həm də kamil mənəvi-əxlaqi keyfiyyətlərə malik, yüksək zəkalı, əyilməz iradəyə sahib şəxsiyyətlər olublar. Onların hər birinin siyasi təlimlər çərçivəsində öyrənilməsi olduqca vacibdir. Xüsusilə, müasir mərhələdə Heydər Əliyev və İlham Əliyevin timsalında Azərbaycanda liderliyin şəxsiyyət kontekstində dərindən, əhatəli siyasi-nəzəri dərki müstəqil dövlət quruculuğu baxımından strateji əhəmiyyətə malikdir.

Liderlikdə şəxsiyyətin rolu məsələsinin bu cür böyük aktuallığı fonunda unutmaq olmaz ki, onun siyasi-nəzəri dərki özlüyündə mürəkkəb idraki prosesdir. Buna görədir ki, elmi-nəzəri tarixdə şəxsiyyətin liderlikdə oynadığı rola fərqli yanaşmalar özünü göstərib. Bunu aydın şəkildə konkret olaraq liderlik haqqındakı siyasi təlimlərin məzmununda görmək olar. Belə ki, şəxsiyyət məsələsi "xasiyyətlər" nəzəriyyəsində bir aspektdə, situasiya nəzəriyyəsində başqa aspektdə, transformasiya nəzəriyyəsində fərqli bucaq altında, dəyərlər nəzəriyyəsində isə bir başqa aspektdə analiz edilir. Təbii ki, həmin məqam digər faktorlarla yanaşı, vurğulanan problemə fərqli metodoloji yanaşmaların mövcud olduğundan da xəbər verir. Biz də bu məqalədə konkret yanaşmadan və ona uyğun metodologiyadan istifadə etməyə çalışırıq.

Məqalənin elmi məqsədinə daxil olan başqa özəllik ayrıca pandemiya dönəmində qlobal geosiyasi və siyasi situasiyanın analizi ilə bağlıdır. Şəxsiyyətin liderlikdə müasir mərhələdə rolu məsələsinə pandemiyanın meydana gətirdiyi dəyişikliklər prizmasından baxılması, bir sıra nəzəri məqamları aydınlaşdırmağa imkan verir. Onların liderlikdə şəxsiyyətin rolu ilə bağlı siyasi-nəzəri təlimlərdə yer almış ideyalarla müqayisəli təhlil etmək bir neçə əhəmiyyətli nəticə çıxarmağa şans yaradır.

Konkret olaraq, liderlikdə şəxsiyyətin rolunu inteqrativ və fənlərarası yanaşmaların sintezində analiz etməyə çalışırıq. Burada elmi məqsəd siyasi təlimlər tarixində şəxsiyyətin rolunun liderlik kontekstində məzmunca və funksional olaraq dəyişmə dinamikasının bütöv nəzəri mənzərəsini yaratmaqdan və ayrıca, pandemiya mərhələsində məsələnin kəsb etdiyi yeni məzmun çalarlarını analiz etməkdən ibarətdir.

Bunun üçün fənlərarası metodologiyadan istifadə edirik. Bu metodologiya çərçivəsində müxtəlif şəxsi keyfiyyətlərin orqanik sintezi üsulundan, şəxsiyyətin formalaşmasına qeyri-xətti təsir edən psixoloji, sosial və siyasi faktorların yekun təsiri metodundan və şəxsiyyət-ətraf mühit qarşılıqlı təsirlərini sistemləşdirməyə imkan verən inteqrativ metoddan yararlanmışıq.

Bu zaman tarixilik, sistemlilik, kommunikativlik və özünütəşkil kimi metodoloji prinsiplərə diqqət yetirmişik.

**Siyasi-nəzəri təlimlərdə şəxsiyyətin rolu haqqında: məsələnin qoyuluşu və izahı**

Çox sayda fəlsəfi, sosioloji, psixoloji və siyasi tədqiqatlarda göstərilir ki, şəxsiyyətin liderlikdə konkret hansı parametrlər üzrə rol oynadığı haqqında hələlik bitkin, ziddiyyətsiz və qəbul edilən nəzəriyyə yoxdur. Siyasi nəzəriyyə və sosial-fəlsəfə tarixində liderlikdə şəxsin konkret hansı keyfiyyətlərə malik olmasının mənzərəsini yaratmaq da hələ mümkün olmayıb. Fərqli yanaşmalar, təsnifatlar, şəxsi keyfiyyətlərin sistemləşdirilməsi cəhdləri az deyil və bu barədə kifayət qədər yazılıb (R.M.Stoqdill, F.İ.Qrinstayn, J.Blondel, M.Q.Berns və b.).

Lakin şəxsiyyətin, ümumiyyətlə, siyasi liderlik fəaliyyətində ciddi rol oynadığı isbatsız etiraf edilir. Şəxsiyyətin rolu məsələsini müasir politoloji yanaşmalarda liderliyin tədqiqinin zəruri aspektlərindən biri kimi təqdim edirlər (məsələn, J.Blondel, Y.Kudryaşova, A.Braun, B.Kellermen, İ.Adizes v. b.). Belə çıxır ki, nəzəri politoloji təfəkkür üçün liderlikdə şəxsiyyətin rolunun konkret hansı aspektlərdə və metodoloji çərçivədə tədqiqinin önəmi böyükdür. Bunları nəzərə alaraq məqalədə bizim məsələni hansı aspektdə izah etməyə çalışacağımızı vurğulayaq. Öncə, konkret siyasi təlimlərdə baxdığımız problemin analizinə qısa nəzər yetirək.

Tədqiqatçılar liderlik konsepsiyalarını tədqiqatın predmeti üzrə təsnifatlaşdıraraq, onun 4 inkişaf mərhələsindən bəhs edirlər. Birinci mərhələ, XIX əsrin sonu - XX əsrin başlanğıcını əhatə edir və liderin şəxsiyyətinin tədqiqinin inkişafı ilə xarakterizə olunur. İkinci mərhələ, 1930-1960-cı illəri əhatə edir və lider davranışlarının tədqiqi ilə bağlıdır. Üçüncü mərhələ, liderliyin sosial kontekstinin tədqiqini nəzərdə tutur və 1960-1980-ci illəri əhatə edir. Dördüncü mərhələ, XX əsrin 80-90-cı illərindən başlayaraq bu günümüzə qədər davam edir və liderliyin dəyərlər nəzəriyyələrinin inkişafını əhatə edir (1, s. 113).

Bundan başqa, tədqiqatçılar bu istiqamətlərin bir-birini tamamladığını və həmin mənada liderlik haqqında bütövlükdə təsəvvür yaratdığını vurğulayırlar. Yəni, faktiki olaraq, onların hər biri liderliyin hansısa konkret aspektini öyrənirlər. Nəzəri olaraq vahid məntiqi təkamül xəttində təsəvvür etsək, şəxsiyyətin liderlikdə rolu ilə bağlı fikir dinamikasını dərk etmək imkanı yaranar. Yuxarıdakı təsnifatdan aydın olur ki, ilk liderlik konsepsiyası liderin şəxsiyyətinin tədqiqi ilə əlaqəli olub və XIX əsrin sonu - XX əsrin əvvəllərini əhatə edib.

Hansı səbəblərdən liderliyin konseptuallaşması birbaşa və mütləq mənada şəxsiyyətlə, insanın malik olduğu keyfiyyətlə, xasiyyətlərlə, mənəvi-əxlaqi faktorlarla, iradə ilə, irsi özəlliklə, ailə ənənəsi, etnik kökən kimi subyektiv parametrlərin nəzəri sistemləşdirilməsi cəhdindən başladı? Bunun tarixi səbəbi kimi qədimdən liderlərin (hökmdarların, rəhbərlərin, başçıların) birbaşa dövlətə rəhbərliyi ilə sıx əlaqədə öyrənilməsini göstərmək olar. Miflərdən tutmuş qədim dövrün böyük filosoflarına (Konfutsiy, Lao Szı, Sokrat, Platon, Aristotel və b.) qədər fikir sahibləri liderliyi birbaşa siyasi kontekstdə - dövlətə rəhbərlik bacarığı, ustalığı, özəlliyi ilə vəhdətdə dərk ediblər. Bu yanaşma elmi idrakda xüsusi yanaşma prinsipi formalaşdırdı. Konkret olaraq "qəhrəman", "dahi", "xilaskar" dövlət başçısı (siyasi lider) və həm də tarixi dərk, izah və təsvir prinsipi oldu. Yəni rəhbərin (liderin) kimliyi, şəxsi keyfiyyətləri yalnız psixoloji, mənəvi, fiziki, fizioloji parametrlərin kompleksi kimi qəbul edilmirdi, onlar həm də liderliyi müəyyən edən koqnitiv izah prinsipi, elmi yanaşma özəlliyi olaraq uzun müddət nəzəri təfəkkürə hakim kəsildi (xatırladaq ki, burada söhbət, ümumiyyətlə, fəlsəfi-elmi təfəkkürün xarakteristikasından getmir – məsələnin ancaq liderliyin konseptuallaşması aspektindən gedir).

Bununla bağlı Y.Kudryaşovanın bir fikri maraqlıdır. Rusiyalı alim yazır: "200 il bundan öncə qəhrəman sadəcə mif və ya şəxsiyyət kultu deyildi, o, tarixi izah prinsipi idi. Onun varlığı və ya yoxluğu, çox sayda tarixçi və filosofun təsdiqinə görə dövlətlərin, xalqların və hətta bütöv mədəniyyətlərin yüksəlişi və tənəzzülünün dərk edilməsinə açar idi (1, s. 28). XX əsrin əvvəllərinə qədər liderliyə (ümummilli liderliyə) məhz bu aspektdə baxılırdı. Burada başlıca tezis liderlikdə şəxsi keyfiyyətlərin həlledici rol oynamasından ibarətdir.

Bir neçə əsr boyunca mütəfəkkirlər yalnız hansı keyfiyyətlərin əsas olması, hökmdarı (lideri) "yaxşı" və ya "pis" başçı edən keyfiyyətlərin konkret hansılar olması və s. kimi məsələlər ətrafında analizlər aparıblar. "Qəhrəman", "dahi", "şir", "tülkü" və s. kimi ibarələr də məhz həmin yanaşmaların fonunda meydana gəlib. Lakin liderliyə yanaşma özəlliyi kontekstində onların

hamısını birləşdirən məqam liderin necəliyinin başlıca olaraq fərdin şəxsi keyfiyyətləri ilə müəyyən olunması idi.

Bu bağlılıqda artıq XIX əsrdə ingilis alim Tomas Karleylin apardığı nəzəri ümumiləşdirmələr diqqət çəkir. Onun fikrinə görə, ümumdünya tarixi böyük insanların bioqrafiyasıdır. Kütlələr daha çox böyük insanların əlində vasitədir. T.Karleyl mövqeyini daha da ümumiləşdirərək yazırdı ki, “tarixi dairə” mövcuddur ki, cəmiyyətdə qəhrəmanlıq zəifləyəndə üzə kütlənin dağıdıcı gücləri çıxa bilir. Bu vəziyyət “həqiqi qəhrəmanlar” meydana çıxana qədər davam edir. Nümunə olaraq T.Karleyl Napoleonu göstərir (2).

XIX əsrin sonu - XX əsrin əvvəllərində fəaliyyət göstərmiş rusiyalı tarixçi V.O.Klyüçevskiy də eyni mövqedə olub. O yazırdı ki, “böyük xalqın fərqli cəhətlərindən biri ən çətin zamanında bütün enerjisini ifadə edə bilən dahi bir insanı meydana çıxarması və onun vasitəsi ilə xilas olmasıdır” (3, s. 77).

Bu cür mövqe bütövlükdə XIX əsrin sonu - XX əsrin əvvəllərinə qədər fəlsəfi və siyasi-nəzəri təfəkkürdə hakim idi. Liderliyi müəyyən edən koqnitiv izah prinsipi kimi şəxsi keyfiyyətlərin dərk edilməsi özlüyündə XX əsrdə mövcud təsəvvürlərin “xasiyyətlər nəzəriyyəsi” adlanan təlimdə konseptuallaşmasına ciddi təkan verdi. Bununla ilk dəfə həmin təlim çərçivəsində liderlikdə şəxsiyyətin rolunun nəzəri obrazı yaradıldı. Burada başlıca özəllik liderliyin tamamilə şəxsi keyfiyyətlərlə, irsi özəlliklə, ailə ənənələri ilə müəyyən edilməsindən ibarətdir.

“Xasiyyətlər təlim”ində müxtəlif yanaşmalar özünü göstərdi – psixoanalitik, sosioloji, siyasi, fəlsəfi və s. Fərqli çeşidlərə baxmayaraq “xasiyyətlər təlimi”ndə fərdin şəxsi keyfiyyətləri liderlikdə mütləq dominantlıq təşkil edirdi. Bu, həm müsbət, həm də mənfi aspektdə ola bilərdi. Onların sırasında psixoanalitiklərin mövqeyi tədqiqatçıları maraqlandırır. Bu sırada Z.Freyd (6) və A.Adlerin (7) işləri qeyd edilə bilər. Onlarla yanaşı, Yel (məsələn, G.Lassuel(8)) və Frankfurd məktəblərinin nümayəndələri (məsələn, T.Adorno (9)) maraqlı konsepsiyalar irəli sürüblər.

Z.Freyd liderliyi “libido”nun təmini ilə, G.Lassuel uşaqlıqda alınan psixoloji travma ilə, T.Adorno isə natamamlıq kompleksi ilə əlaqələndirirdi. Bunların hər biri üçün ortaq olan mövqe liderliyin birbaşa şəxsiyyətin daxili psixoloji özəllliyi, həyat yolu və məqsədlərinin endopsixoloji parametrləri ilə bağlı olmasında idi. Psixoloji tədqiqatlar sonrakı mərhələdə (XX əsrin 70-ci illərindən bşlayaraq bu günə qədər) F.Qrinştaynın, C.Barberin, K.Cibbin, E.Hollanderin, B.Bassın, M.Hermanın və digərlərinin yaradıcılığında öz əksini tapdı.

Ancaq “xasiyyətlər təlimi” haqqında danışılanda daha çox R.M.Stoqdillin adı çəkilir (10). Amerikalı alim ilk dəfə olaraq “xasiyyətlər təlimi” çərçivəsində liderliyi təmin edən fərdi xüsusiyyətlərin dairəsini müəyyən edib, onları konseptuallaşdırmağa çalışdı. Bunun üçün o, fərdin intellektual imkanları, başqaları üzərindəki üstünlüyü, özünə inamı, elədikləri haqqında ciddi biliyə sahib olması və fəallığı seçdi.

Ancaq məlum oldu ki, birincisi, bu cür təsnifat metodoloji və praktiki baxımdan faydalı deyil, ikincisi, başqa fərqli təsnifatlar meydana çıxdı və məsələdə tam bir qarışıqlıq yarandı. Aparılan empirik tədqiqatlar, ekspert və vətəndaş rəylərinin sosioloji analizi kimi metodlar da elmi konkretliyə varmağa imkan yaratmadı.

Hətta keçən əsrin 80-ci illərinin ortalarında amerikalı politoloq U.Bennis 100-ə yaxın lideri geniş analiz edərək onların şəxsiyyətini müəyyən edən xarakteristikaları konkretləşdirməyə çalışdı. Bu sıraya fizioloji (çəki, boy və s.), emosional (psixoloji, təşəbbüskarlıq və s.), intellektual (daha ağıllı olan liderliyə daha uyğundur), şəxsi işgüzar keyfiyyətlər (iş posesində qazanılan keyfiyyətlər, təcrübə) daxil edilmişdi (11, s. 47-48). Lakin bu təsnifatın praktiki faydalılığı və universal konseptuallaşdırma potensialı öz təsdiqini tapmadı.

Ancaq “xasiyyətlər təlimi” bütövlükdə liderlikdə şəxsiyyətin rolu ilə bağlı aspektdə digər siyasi-nəzəri təlimlərə də ciddi təsir etdi. Bu baxımdan “situasion təlim”ini “xasiyyətlər təliminin” “əkizi” (K.Cibb) adlandırmaları əsaslıdır. Bir məqamı vurğulayaq ki, xronoloji baxımdan “xasiyyətlər təlimi”nin “situasion təlim”dən öncə yarandığını demək, elmi baxımdan o qədər də korrekt deyil. Onlar paralel formalaşıb. Burada əsas fərq alimlərin “xasiyyətlər təlim”ində özünü

göstərən və birbaşa liderliyin şəxsi aspekti ilə bağladıqları faktordan qaynaqlanır. Konkret olaraq, həmin təlim çərçivəsində hansı səbəblərdən digərlərindən seçilən şəxsi keyfiyyətlərə malik liderlərin fərqli xidmət göstərmələrinə (bir halda müsbət, digər halda isə mənfi, məsələn, Hitler mənfi obrazdır, Ruzvelt və ya Atatürk isə müsbət) qaneedici cavab tapılmır. Bununla problem, faktiki olaraq, şəxsiyyətin liderlikdə rolunun nəzəri izahına proyeksiya edilmiş olur.

"Xasiyyətlər təlimi"ndə əsas olaraq şəxsiyyətin özəl keyfiyyətlərinə istinad edilirsə, situasion təlimdə həmin problemi həll etmək üçün hər bir liderin konkret situasiyada davranışları ilə şəxsi keyfiyyətlərin qarşılıqlı əlaqəsinin real nəticəsini əsas götürürlər. Yəni, əslində, problem yenə də liderin şəxsi roluna ehtiva edilir, lakin bu rolun nəticəsi şəxsi davranışlar və situasiyanın özəlliyi ilə sıx bağlılıqda izah olunur. Müəyyən mənada situasion təlim "xasiyyətlər təlimi"ndə yer almış şəxsiyyətin rolu məsələsinə bir qədər geniş sahədə, liderin fəaliyyət göstərdiyi situasiyada baxır. Bu təlimin nümayəndəsi kimi amerikalı politoloq F.E.Fidleri göstərmək olar (12, s. 1-33).

Lakin situasion yanaşma liderlikdə şəxsiyyətin rolu məsələsində maraqlı nəzəri və metodoloji keçid üçün koqnitiv zəmin hazırlamış oldu. Bizi maraqlandıran elmi problem bağlılığında bu, şəxsiyyətin rolunun nəzəri dərkinin XX əsrin ikinci yarısından sonra meydana gələn siyasi-nəzəri təlimlərdə "xasiyyətlər təlimi"ndən xeyli fərqli kontekstdə - liderin (konkret keyfiyyətlərə malik şəxsiyyət kimi) onu əhatə edən ətraf mühitlə (bu, milli, regional və qlobal miqyasda çox sayda müxtəlif təbiətli faktorları əhatə edən sosial-mədəni mühitdir) qarşılıqlı əlaqəsi (və ya münasibəti) müstəvisinə transformasiya edilməsi anlamına gəlir. Həmin təzahür özünü, konkret olaraq, liderliyin transformasiya və dəyərlər təlimlərində göstərməkdədir.

Liderlikdə şəxsi keyfiyyətlərin rolu bağlılığında transformasiya və dəyərlər təlimləri üçün ortaq məqam problemə liderlə ətraf mühitin qarşılıqlı əlaqəsi aspektində liderin təsir imkanlarının nəzəri ölçülməsinə cəhddən ibarətdir. J.Blondel üçün bu, əslində, başlıca prinsipdir. O, liderliyi təsir dairəsi əsasında təsnifatlaşdırır və liderin şəxsi roluna da məhz o aspektdə baxır (4, s. 31-37). Transformasiya təliminin görkəmli nümayəndələri kimi qəbul edilən Ceyms Makqreqor Berns və Bernard Bassın yanaşmaları da nəzəri-metodoloji aspektdə həmin çərçivədədir. Onlar arasındakı fərqlər təlimin stratejisində deyil, konkret taktiki özəlliklərdədir. C.M.Berns üçün başlıca məqam lider-ətraf mühit qarşılıqlı əlaqəsində əsas yeri liderlə ardıcıllarının münasibətləri tutur. Bu zaman həmin münasibətlərdə "lider və ardıcıllarının bir-birinə yardım etməsi" yolu ilə "daha yüksək mənəvi-ruhi və motivasiya səviyyəsinə keçməyə" nail olmaq başlıca məqsəddir. C.M.Bernsin yanaşmasına görə, liderin şəxsi keyfiyyətləri onun ardıcılları ilə qarşılıqlı münasibətləri kontekstində iştirakçıların əhval-ruhiyyəsinin, motivasiyalarının, mənəvi-ruhi vəziyyətlərinin daha yüksək səviyyəyə keçməsini təmin etməlidir (13). Bu məqam C.M.Bernsin ideyalarını inkişaf etdirən Bernard Bassın yaradıcılığında daha konkret ifadəsini tapıb. B.Bassın mövqeyinə görə, lider ardıcıllarını öz ideallaşmış xarizması, intellektual potensialı və fərdi diqqətçilliyi ilə motivasiya edərək onları transformasiya edir(14). Deməli, B.Bass lider-ardıcılları (ətraf mühit qismində) münasibətlərində liderin siyasi keyfiyyətləri, psixoloji qabiliyyəti və fərdi təsiretmə gücü vasitəsi ilə əldə edilən liderlik nəticələrinə istiqamətlənmiş nəzəri-praktiki fəaliyyətin əhəmiyyətini önə çəkir.

Buradan bizi maraqlandıran problem aspektində bir nəticə çıxara bilərik: transformasiya təlimi şəxsiyyətin liderlikdə rolu bağlılığında situasion yanaşmanın lider-ətraf mühit qarşılıqlı münasibətləri (təsirləri) aspektində problemə daha geniş kontekstdə yanaşmaq nümunəsi kimi təsəvvür edilə bilər. Bu cür yanaşmada şəxsiyyətin rolu liderin əldə etməli olduğu nəticə fonunda dəyərləndirilir və bu rola yüksək (bir sıra hallarda həlledici) qiymət verilir.

Keçən əsrin son onilliyində vüsət almağa başlayan dəyərlər təlimində vurğulanan yanaşma özəlliyi daha geniş masştabda özünü göstərməyə başlayır. Həmin masştab liderik məsələsinə bütün cəmiyyəti əhatə edən sosial-mədəni mühit çərçivəsində baxmaqla müəyyən olunur. Burada ayrıca liderin şəxsi keyfiyyətlərinin liderlikdə rolu məsələsinə deyil, lider-ətraf mühit kontekstində dəyərlərin qorunması, təmini və inkişaf etdirilməsi prizmasında nəticəyə hesablanmış qarşılıqlı fəaliyyətə baxılır.

Konkret olaraq, dəyərlər təlimində “lider-ardıcılları” qarşılıqlı münasibətlərinin tədqiqi (G.Ferholm 15), S. və (T.Kuçmarskilər 16), B.Kellerman (17), “liderin xidmətçiliyi”(R.Qrinlif 18), sosial idarəetmədə “uğur fəlsəfəsi” (C.Barber19)), dəyişikliklərin idarəedilməsinin nəzəri konstruksiyası (İ.Adizes(20) və başqa məsələlər araşdırılır. Bütün variantlarda dəyərlər nəzəriyyəsi liderin şəxsi keyfiyyətlərinin rolunu yalnız onun ətraf mühitlə (burada “ətraf mühit” anlayışı təşkilatı, qrupları və cəmiyyəti əhatə edə bilir) qarşılıqlı əlaqələrinin nəticəsi kontekstində qiymətləndirilir. Ancaq hansı hallarda liderin “uğurlu şəxsiyyət”(C.Barber), “ideal şəxsiyyət”(İ.Adizes), “xidmətçi şəxsiyyət”(Qrinlif R.K.) və ya “ardıcılların yetişdirdiyi şəxsiyyət” (B.Kellerman) olmasına aydınlıq gətirilmir.

Biz bu məqalədə liderlik haqqında təlimlərə daha geniş aspektdə nəzər sala bilmirik. Yuxarıda vurğulananları liderlikdə şəxsiyyətin rolunun analizini yanaşmaların təkamülü aspektində ümumiləşdirsək, maraqlı qənaət əldə edə bilərik. Belə ki, müqayisəli təhlil göstərir ki, liderlikdə şəxsiyyətin rolu məsələsi nəzəri və metodoloji kontekstdə konkret təkamül xəttinə malikdir.

“Xasiyyətlər təlimi”ndə şəxsiyyət ətraf aləmdən təcrid olunmuş kimi təsəvvür edilir və bu keyfiyyətdə şəxsiyyətin liderliyin məzmunu, funksiyası və məqsədləri aspektlərində rolları mütləqləşdirilir.

Situasion təlimdən bu mövqedən qismən kənara çəkilir və liderin davranışları fonunda lider-ətraf mühit münasibətləri (situasiya formasında) nəzərə alınaraq analiz olunur.

Transformasiya təlimində situativliyin məhdud cəhətləri qismən saxlansa da, problemə sırf lider (şəxsiyyət)-ətraf mühit qarşılıqlı münasibətləri bağlılığında nəzər salınır və liderin şəxs olaraq əldə etdiyi nəticələrə görə qiyməti verilir (“dəyişdirici lider” və ya “uyğunlaşdırıcı, adaptasiya edici, saxlayıcı lider”). Bununla transformasiya təlimində liderin fəaliyyəti onun ətraf mühitlə qarşılıqlı əlaqəsi prizmasında tədqiq edilir və burada liderin təsir dairəsi konteksti də ciddi nəzərə alınır (J.Blondel və s.).

Nəhayət, dəyərlər təlimində problem sırf lider (şəxsiyyət)-ətraf mühit kontekstində tədqiq edilir və müxtəlif variantlar meydana çıxır. Artıq liderlikdə şəxsiyyətin rolu liderin ardıcılları, stokherlər və bütövlükdə cəmiyyətlə (daha geniş kontekstdə regional və qlobal mühitlə) qarşılıqlı əlaqəsinin nəticələri çərçivəsində baxılır. Burada çox fərqli obrazlar formalaşdırıla bilər (məsələn, “bayraqdar lider”, “xidmətçi lider”, “xarizmatik lider”, “şair lider” və s.), lakin məsələnin başqa bir aktual aspektini də unutmaq olmaz. Biz, müasir mərhələdə liderlikdə şəxsiyyətin rolunu siyasi-nəzəri olaraq hansı üsulla analiz etməyin mümkün ola biləcəyini nəzərdə tuturuq. Bu suala cavab vermək üçün liderliyə müasir yanaşmaların məzmununa təsir göstərən bir sıra siyasi, geosiyasi və sosial-mədəni məqamlar üzərində dayanaq və onun əsasında öz mövqeyimizi izah etməyə çalışaq.

**Şəxsiyyət - “siyasi idarəetmə və informasiya interfeysi”: liderlikdə rolu**

Beləliklə, müasir siyasi-nəzəri tədqiqatlarda şəxsiyyətin liderlikdə rolu məsələsinə lider-ətraf mühit qarşılıqlı əlaqələr (və ya təsirlər) çərçivəsində yanaşma üstünlük təşkil edir. Biz bunu adekvat yanaşma kimi qəbul etməklə yanaşı, həmin istiqamətdə yeni anlayışa ehtiyac olduğunu düşünürük. Bu anlayış şəxsiyyətin rolunun liderlikdə pozitiv və ya neqativ nəticələr verməsini və bunun hansı faktorlardan qaynaqlana biləcəyini aydınlaşdırmağa yardım edə bilər. Həmin məqsədlə müasir elmi metdodologiyada istifadə olunan bir metoda müraciət edək.

Fənlərarası tədqiqatlar üçün xarakterik olan “interfeys” (müxtəlif sferaların ortaq sahəsi) termininə baxaq. Çexiyalı metodoloq H. Novotnı mənşəyi təbiət elmlərində olan və fərqli səthlərin ortaq sahəsini ifadə edən bu termini daha da genişləndirir və bütövlükdə müxtəlif mürəkkəb sistemlərin dərkinə tətbiq etməyə çalışır (21, s.15-31). Burada əsas məqsəd mürəkkəb sistemlərin dərkində sadələşdirmələrə nail olmaq və onun fonunda sistemi tədqiq etməkdən ibarətdir. Bunun üçün interfeysdə (müxtəlif faktorların qarşılıqlı təsirlərinin ortaq sahəsində) hansı mexanizmlərin işlədiyini, onların hansı nəticələr verə bildiyini və bu üsulla meydana gələn mənzərənin mürəkkəblik vəziyyətinə nisbətən sadə olduğunu elmi araşdırmaq gərəkdir.

Mürəkkəb sistemlərin araşdırılması ilə məşğul olan bir sıra mütəxəssis (məsələn, D.Zolo (22), V.Arşinov və V.Budanov(23) və s.) bu üsulu geniş çeşidli mürəkkəb sistemlərin, o cümlədən sosial-mədəni, humanitar sistemlərin, öyrənilməsinə tətbiq etməyin imkanlarından bəhs edirlər. Bu reduksiyanın elmi əsasının olduğu interfeys vasitəsi ilə sosial-mədəni və humanitar sistemlərdə subyekt-obyekt qarşılıqlı təsirlərini nəzəri araşdırılmasının mümkünlüyündən qaynaqlanır. İntuitiv olaraq aydındır ki, vurğulanan kontekstdə lider-ətraf müti qarşılıqlı təsirlərini də "interfeys" anlayışı vasitəsi ilə elmi öyrənmək olar.

Bu məqsədlə biz, lider-ətraf mühit qarışılıqlı təsirlərini öyrənmək aspektində liderin şəxsiyyət kimi, bütövlükdə cəmiyyətdə kommunikasiyada olduğu kəsimlərin kompleksini ifadə edən "siyasi idarəetmə və informasiya interfeysi" anlayışını daxil edirik. Vurğulayaq ki, biz "lider"anlayışını bu aspektdə dövlət başçısı-siyasi lider vəhdəti olaraq, yəni ölkəyə rəhbərlik edən şəxsin həm də real olaraq toplumun lideri olduğu şərti prizmasında məsələyə baxırıq. Aydındır ki, siyasi proseslərdə idarəetmə və informasiya təminatı öncül yer tutur. Bu prinsipi gözləməklə biz liderin şəxsiyyət kimi kommunikativ münasibətdə olduğu bütün sosial-mədəni, siyasi, idarəetmə, informasiya seqmentləri ilə qarşılıqlı təsir mexanizmləri üzərində dayanırıq. Beləliklə, "siyasi idarəetmə və informasiya interfeysi" dövləti idarəetmənin bütün institutlarını (və mexanizmlərini), liderin ardıcıllarını, stokherləri, KİV və QHT-ləri, sosial şəbəkələri və çeşidli qrupları əhatə edir. Bu interfeys liderlə bütövlükdə toplum (ancaq seçiciləri deyil!) arasında kommunikasiyanın formalaşdırılmasında vasitəçi, aralıq rolunu oynayır.

Bizcə, real siyasi fəaliyyətdə məhz lider-ətraf mühit qarşılıqlı münasibətləri məhz bu müxanizmlə konkret məzmun kəsb edir. Əsas tezis ondan ibarədtir ki, hər bir məkan-zaman kontinuumunda konkret reallıqlar "siyasi idarəetmə və informasiya interfeysi" sahəsində yaranır. Fənlərarası yanaşmada ümumi olaraq bu hadisəyə "yeni mənaların yaranması" deyilir. Siyasi liderlikdə təbii ki, söhbət interfeys sahəsində yaranan siyasi və idarəetmə reallıqlarından gedə bilər. Həmin reallıqlar birbaşa liderin şəxsiyyət kimi liderlikdə rolunun məzmun, mahiyyət və məqsədini formalaşdırır. Əgər "yeni mənalar" (liderin fəaliyyəti nəticəsində interfeys sahəsində formalaşmış yeni siyasi reallıqlar) toplum üçün pozitiv nəticələr verirsə, liderin dahiliyi J.Blondel mənasında "pozitiv-lider" kimi qiymətləndirilə bilər. Əks halda "neqativ-lider"dən bəhs etməli oluruq. Konkretləşdirsək, bizim yanaşmamıza görə, məsələn, Hitlerin neqativ-lider kimi qiymətləndirilməsi onun şəxsiyyət kimi özəllikləri ilə yanaşı, toplumda aktiv qarşılıqlı münasibətdə olduğu müxtəlif seqmentlərlə qarşılıqlı təsirlərinin yekunu ilə bağlıdır. Yəni burada "xasiyyətlər" təlimində iddia edildiyi kimi şəxsi keyfiyyətlər və ya situasion təlimdə deyildiyi kimi situasiyalar aparıcı rol oynamır. Transformasiya təlimində də liderin niyə dəyişdirici olmasının səbəbi aydınlaşdırılmadığından, həmin təlimdən də fərqli izah mexanizmi təklif edirik. Eyni fikri dəyərlər təlimi üçün də deyə bilərik.

Bununla liderlikdə şəxsiyyətin rolu məsələsi konkret olaraq aralıq sahədə - interfeys zonasında həllini tapır. Lider şəxsiyyət kimi toplumun siyasətlə aktiv ünsiyyətdə olan seqmentlərinin kompleksi ilə işləyir. Onun şəxsiyyət olaraq malik olduğu keyfiyyətlər nəticəyə birbaşa təsir edir. Məhz bu kontekstdə liderin şəxsiyyətinin fəaliyyətində rolu olduqca əhəmiyyətli faktor statusunu alır. Xüsusilə, toplumun böhranlı zamanlarında və ya dünyanın geosiyasi, siyasi, iqtisadi, hərbi, ekoloji, sosial, mədəni kataklizmlərlə xarakterizə olduğu mərhələdə liderin şəxsiyyəti strateji əhəmiyyət kəsb edir. Pandemiya mərhələsinin politoloji və geosiyasi araşdırılması bu tezisi tam təsdiq etməkdədir. Alimlər keçən əsrin 90-cı illərindən qlobal miqyasda yaranmağa başlayan geosiyasi, siyasi, iqtisadi və mədəni proseslərin fonunda lider, şəxsiyyət, dövlət, siyasət kimi anlayışların fərqli tədqiqi məsələsini önə çəkirlər (bax: məs., 24, 25 və 26).

Alimlərin mövqeyinin bu cür dəyişməsində onların bütövlükdə dünya siyasi məkanında struktur dəyişikliyinin baş verdiyinə əmin olmaları haqqında tezis dayanır (24, s. 22). Bu dəyişklik ümumilikdə beynəlxalq münasibətlərin Yalta-Potsdam modelinin artıq səmərə verməməsində (27, s. 52-79), dövlətlərarası münasibətlərin məzmun, forma və proses olaraq yenilənməsində (28), dünya liderinin dəyişməsi ehtiyacının yaranmasında (29, s. 22-27) və bütün bunların fonunda

liderin şəxsiyyətinin liderlikdə rolunun keyfiyyətcə yeni məzmun və aktuallıq kəsb etməsində təsdiqini tapır. Hazırda bununla bağlı bir sıra konseptual yanaşmlar da mövcuddur. Məsələn, qlobal miqyasdakı transformasiyaların əsasını N.Taleb statistik dəyişikliklərdə axtarır, S.Sassen "oliqapolis modeli"ni irəli sürür, Z.Bauman isə modeli "ərazi siyasəti" (milli dövlətlər) ilə "axın siyasəti" (qlobal dünya) arasındakı qarşıdurmasında axtarır (24, s. 22).

Pandemiya mərhələsində qlobal siyasi dinamikanı və liderliyi analiz edən Parenkov D.A. və Petrov K.E. belə qənaətə gəlirlər ki, böhranın kritik şərtləri daxilində, ziddiyyətsiz və rasional ekspertiza aparmaq imkanının çox az olması "lider davranışlarına ehtiyacı artırır" (26, s. 9). O cümlədən, şəxsi təşəbbüsü ilə ən riskli addımları ata bilən lider-şəxsiyyətə ciddi tələbat yaranır. Maraqlıdır ki, belə bir kritik dönəmdə məsuliyyəti bütövlükdə cəmiyyətin üzərinə atmağa çalışan liderlər də ola bilir. Onlar adətən toplumla "üfüqi münasibətlər" qururlar, onlarla geniş müzakirələr aparırlar və nəticə arzuolunan olmayanda "siz də vardınız" deyirlər (26, s. 9).

Müəlliflər buradan belə bir qənaət əldə edirlər: "müasir situasiyada liderlərin şəxsi keyfiyyətlərinin rolu ancaq artacaq" (26, s. 11). Özü də bu iki aspektdə özünü göstərəcək – kütlələrin arzuları, istəkləri, narahatlıqlarının obyekti və "cəmiyyət üçün taleyüklü qərarlar qəbul edən siyasi proseslərin subyekti kimi" (26, s. 11).

Bizim yanaşma prizmasında vurğulanan iki məqam göstərir ki, liderlikdə yüksək səviyyədə ünsiyyətcil (kommunikabelli) siyasi liderlərin bütün səviyyələrdə siyasi proseslərdə rolu çox artır. Siyasi idarəetmə və informasiya interfeys sahəsi üçün həmin faktorun əhəmiyyəti prinsipial xarakter daşıyır. Çünki məlum olur ki, interfeys zolağında formalaşan yeni siyasi reallıqlar (ümummetodoloji yanaşma çərçivəsində - "yeni mənalar") getdikcə daha çox ölçüdə liderin şəxsi keyfiyyətlərindən asılı olmağa başlayır. Həmin zonada lider-dövlət başçısı ilə interfeys sahəsinə daxil olan bütün seqmentlərin qarşılıqlı əlaqəsinin inteqrativ (daha doğrusu, sinergetik) yekunu bütövlükdə liderliyin xarakterini müəyyənləşdirəcək. Məhz bu meyar əsasında təşəbbüskar, intellektual, müsbət kommunikabelli, pozitiv amaclı liderlə, klassik təsnifatda "pis lider" adlanan kateqoriya arasında fərqlər özünü göstərəcək.

Cənubi Qafqazdakı liderlərin son illərdəki fəaliyyəti prizmasında bu tezisi təsdiq edən nümunələr tapmaq olar. Azərbaycan Prezidenti İlham Əliyev İkinci Qarabağ Savaşı müddətində özünü yüksək səviyyədə intellektə sahib, təşəbbüskar və həm siyasi idarəetmədə, həm də informasiya seqmentləri ilə aktiv təmaslarında pozitiv liderliyini sübut edən şəxsiyyət kimi göstərdi. Nikol Paşinyan da kifayət qədər kommunikabellik nümayiş etdirdi, lakin o, əsas olaraq gah dünyanın güclü liderlərindən yardım istəməyə, gah Ermənistanın digər siyasi qüvvələrini ittiham etməyə və Savaşdan sonra isə məsuliyyəti, ümumiyyətlə, cəmiyyətin üzərinə atmağa çalışdı. Bununla da İlham Əliyev pandemiya dönəmində şəxsi keyfiyyətləri ilə siyasi təsir dairəsini genişləndirən pozitiv lider, N.Paşinyan isə cəmiyyətlə üfüqi kommunikasiya qurmaqla məsuliyyəti bütövlükdə toplumla və siyasi qüvvələrlə bölüşməyə cəhd edən lider kimi özünü tanıtdı.

Beləliklə, müasir şəraitdə liderlikdə şəxsi keyfiyyətlərin rolu daha da artmış olur. Onun siyasi-nəzəri qiymətləndirilməsi üçün siyasi idarəetmə və informasiya interfeysi sahəsində meydana gələn yeni siyasi reallıqların (yeni mənaların) inteqrativ özəllikləri, xarakteri, əmələ gətirdikləri ümuni siyasi-informasiya mənzərəsi çərçivəsində verilə bilər. Bu, ümumi bir siyasi-nəzəri və metodoloji konstruksiyadır. Lakin qlobal dünya sistemi kifayət qədər mürəkkəbdir və onun siyasi analizi sistemli yanaşma tələb edir.

## Ümumiləşdirmələr və nəticələr

### a) Ümumiləşdirmələr

Siyasi təlimlər tarixində şəxsiyyətin liderlikdə rolu məsələsinə daim böyük diqqət olub. Bu məsələ hər bir təlimdə özünəməxsus analiz olunub və qənaətlər əldə edilib. Lakin onların hamısı üçün ortaq olan tezis belədir: siyasi lider həm də dövlət başçısıdırsa, bütövlükdə cəmiyyətin və dövlətin taleyində həlledici rol oynaya bilər. Lakin bu rolun konkret siyasi-nəzəri ölçülməsi

məsələsi hələlik birmənalı həllini tapmayıb. Müxtəlif modellər təklif edilir və bu proses dayanmayıb.

Son illər tədqiqatçılar vurğulanan problemə lider-ətraf mühit qarşıllıqlı münasibətləri (və ya təsirləri) çərçivəsində baxırlar. Bu cür yanaşma həm bütövlükdə situasiyanı mürəkkəbləşdirir, ortaya çoxlu sayda faktoru nəzərə almağı tələb edən mənzərə çıxır, həm də sürətlə dəyişən qlobal və regional geosiyasi, iqtisadi, ekoloji, siyasi və mədəni dinamikanın adekvat dərki zərurətini bir daha təsdiq edir. Həmin vəziyyəti artıq politoloqlar analiz edirlər və müxtəlif modellərdən bəhs olunur. Burada ümumi qənaət ondan ibarətdir ki, müasir mərhələdə və ayrıca pandemiyadan sonra liderin şəxsi keyfiyyətlərinin liderlikdə rolu yeni səviyyədə artacaq.

**Nəticə**

1.Yeni tarixi-geosiyasi və siyasi situasiyada liderlikdə şəxsiyyətin roluna yeni yanaşmaların formalaşdırılmasına ehtiyac artır.

2.Burada nəzəri və metodoloji olaraq hər şeydən öncə, mürəkkəb qlobal dünya sisteminin dərkini sadələşdirə biləcək üsulların tapılması lazımdır.

3.Həmin məqsədlə biz "siyasi idarəetmə və informasiya interfeysi" anlayışının faydalı ola biləcəyini düşünürük.

4."Siyasi idarəetmə və informasiya interfeysi" dövlət başçısı-liderlə bütövlükdə toplumun qarşılıqlı əlaqələrinin ümumi xarakterini formalaşdıran yeni siyasi reallıqlar ("yeni mənalar") zonasıdır. Hesab edirik ki, bu zonada həm situasiyanın mürəkkəbliyi azalır, həm də siyasi liderlikdə şəxsiyyətin rolunun daha konkret mənzərəsi yaranır. Həmin əsasda lideri pozitiv və ya neqativ tip kimi fərqləndirmək olar.

## İstifadə olunmuş ədəbiyyat


1. Кудряшова Е.В. Лидерство как предмет социально-философского анализа. САФУ им. М.В. Ломоносова, 2019//URL: https://iphras.ru/uplfile/ root/news/archive_events/2019/2kud-ryashova_e_v_liderstvo_2019.pdf. Müraciət tarixi 25.05.2021.
2. Карлейль Т. Герои, почитание героев и героическое в истории.М:Астрель,2012, 1024 с.
3. Русский архив. Альманах. Выпуск 1. М.: Столица, 1990, 272с.
4. Блондель Ж. Политическое лидерство: Путь к всеобъемлющему анализу. М.: Российская академия управления, 1992, 135 с.
5. Браун А.Типы лидеров.Определить, найти подход, добиться своего.М.:Бомбора,2019, 730 с.
6. З.Фрейд, Психология масс и анализ человеческого «Я» // Зигмунд Фрейд. Тотем и табу / пер. с нем. Р.Ф. Додельцева. СПб.: Азбука-Аттикус, 2017, 247 с.
7. Адлер А. Смысл жизни // Философские науки. 1998, № 1, с. 15–26.
8. Лассуэлл Гарольд Д. Психопатология и политика: Монография / Пер. с англ.Т.Н.Самсоновой, Н.В.Коротковой. М.: Издательство РАГС, 2005, 352 с.
9. Адорно Т. Исследование авторитарной личности. М.: Серебряные нити, 2001, 416 с.
10. Stogdill R.M. Handbook of Leadership: A Survey of Theory and Research. Free Press, N.Y., 1974, 581 p.
11. Bennis W. On Becoming a Leader, New Youk: Basic Books, 2008, 295 pp.
12. Fred E. Fiedler. Personality and situatto^al determinants of leader behavior. University of Washinogton Technical Report 71-18 June, 19/1// URL: https://apps.dtic.mil/sti/pdfs-/AD0727129.pdf, 34 p. Müraciət tarixi 20.02.2021
13. Burns J.M.. Transforming Leadership: A New Pursuit of Happiness. Atlantic Monthly Press, 2003, 319 p.
14. Bass, M.B. & E.G. Riggio. Transformational leadership 2nd ed. Mahwah, NJ: Lawrence Erlbaum Associates, 2006, 282 p.
15. Fairholm G.W.Values Leadership.Toward a New Philosophy of Leadership.N.Y.,1991,272 p.

16. Kuczmarski S., Kuczmarski Th.Values-Based Leadership.Englewood Cliffs,NJ.,1995, 326 p.
17. Келлерман Б. Идущие за лидером : как подчиненные создают изменения и меняют своих лидеров. М: Аквамариновая кн., 2009, 381 с.
18. Robert K.Greenleaf. The Servant-leader Within: A Transformative Path. Paulist Press, 2003, 258 pp.
19. Barber J.D. The Presidential Character Predicting Performance in the White House, With a Revised and Updated Foreword by George C. Edwards III. Published October 29, 2019 by Routledge, 548 P//url: https://www.routledge.com/The-Presidential-Character-Predicting-Performance-in-the-White-House-With/Barber/p/book/9780367366773. Müraciət tarixi 26.03.2021.
20. Адизес И. Идеальный руководитель: Почему им нельзя стать и что из этого следует. М.: Альпина Бизнес Букс, 2007, 262 с.
21. Nowotny H. The increase of complexity and its reduction: emergent interfaces between the natural sciences, humanities and social sciences//Theory, culture and society. 2005, Vol.22, №5, p.15-31.
22. Дзоло Д. Демократия и сложность. Реалистический подход. М.: Изд. дом Гос. ун-та Высшей школы экономики, 2010, 314 с.
23. Аршинов В.И. Рефлексивно-активные среды инновационного развития в контексте синергетики сложности//Междисциплинарные проблемы средового подхода к инновационному развитию/Под ред. В.Е.Лепского. М.: «КогитоЦентр», 2011, с.52-73.
24. Бляхер Л.Е. Издержки глобального лидерства и «соседская» международная политика/Международная аналитика. 2021, Том 12 (1), с. 21–34//https://doi. org/10.46272/2587-8476-2021-12-1-21-34. Müraciət tarixi 22.05.2021.
25. Matthew Smith, “How is COVID-19 aff ecting British opinions, jobs and wellbeing?” YouGov, March 24, 2020, accessed September 15, 2020// URL:https://yougov.co.uk/topics/politics/articles-reports/2020/03/24/how-covid-19-aff ecting-british-opinionsjobs-and-w. Müraciət tarixi 18.05.2021
26. Пареньков, Д.А., Петров, К.Е. Коронавирус и политика: запросы и ценности в эпоху пандемии // Международная аналитика. 2020. Том 11 (2), с. 109–121. https://doi.org/10.46272/2587-8476-2020-11-2-109-121. Müraciət tarixi 22.05.2021.
27. Юнгблюд, В.Т. Мировой порядок 1945 г. – процесс с «открытым» продолжением // Вестник МГИМО-Университета. 2020, № 13, с. 52–79.// URL: https://doi.org/10.24833/2071-8160-2020. Müraciət tarixi 16.05.2021.
28. Fukuyama F. Identity: The Demand for Dignity and the Politics of Resentment. New York: Farrar, Straus and Giroux, 2018.
29. Логинов, Е.Л., Логинов, А.Е. Глобальный кризис как новый формат борьбы за мировое экономическое лидерство // Финансы и кредит. 2010. № 18 (402), с.. 22–27.

## РОЛЬ ЛИЧНОСТИ В ЛИДЕРСТВЕ: АНАЛИЗ ПОДХОДОВ В ПОЛИТИЧЕСКИХ ТЕОРИЯХ И РЕАЛИЙ ПАНДЕМИЧЕСКОГО ПЕРИОДА

**СеймурТалыбов**

**Резюме.** В статье роль личности в лидерстве рассматривается в контексте подходов, в политических теориях. Вопрос анализируется в свете новых геополитических и политических реалий пандемического периода. Осуществляется сравнительный анализ представлений о роли политического лидера в лидерстве: политической теории - «теория черт», ситуационной теории, теории трансформации и в теории ценностей. Формулируется подход автора к анализу данной проблемы. С этой целью вводится понятие «интерфейс политического управления и информации».

В статье показывается «интерфейс политического управления и информации», являющийся общим полем взаимодействия лидера с окружающей средой. Под окружающей средой понимаются: институты управления государством, продолжатели лидера, стейкхолдеры, разные социальные сегменты общества, СМИ. Обосновывается тезис о том, что в поле взаимодействия лидера-руководителя государства, фактически спонтанно, формируются новые политические реалии. В более общем плане новые политические реалии - это новые смыслы.

Автор считает более адекватным рассмотрение роли личности политического лидера-главы государства в современных условиях (пандемический и постпандемический период) в свете этого понятия. Для обоснования этого тезиса автор анализирует глобальную политическую ситуацию. Рассматривает некоторые политико-теоретические модели этих процессов, выдвинутые в последние годы. В контексте полученных результатов анализируется деятельность некоторых лидеров Южно-Кавказских стран.

**Научная цель:** учитывая новую ситуацию пандемического периода, в реалии глобальной геополитики и политики, следует анализировать роль политического лидера в лидерстве.

**Методология:** используется синтез интегративной и междисциплинарной методологии.

**Метод:** применен метод взаимодействия личность-окружающая среда.

**Научная новизна:** мы вводим понятие «интерфейс политического управления и информации» в контексте новых поисков для политологических исследований роли личности в лидерстве. «Интерфейс политического управления и информации» является зоной взаимодействия лидера-главы государства с обществом в целом, через институты управления, сторонников, стейкхолдеров, политических партий, СМИ, где формируются новые политические реалии (новые смыслы). Мы выдвигаем тезис о том, что именно в этой зоне формируется более конкретная картина о роли личности в лидерстве.

**Ключевые слова:** лидер, личность, глобальная политика, пандемия, интерфейс, новые политические реалии, новые смыслы, позитивный политический лидер, трансформация.

## THE ROLE OF PERSONALITY IN LEADERSHIP: ANALYSIS OF APPROACHES IN POLITICAL THEORIES AND REALITIES OF THE PANDEMIC PERIOD

**Seymur Talibov**

**Abstract.** The article examines the role of personality in leadership in the context of approaches in political theories. The issue is analyzed in the light of the new geopolitical and political realities of the pandemic period. A comparative analysis of ideas about the role of a political leader in leadership of political theories is carried out - "theory of traits", situational theory, theory of transformations and theory of values. The author's approach to the analysis of this problem is formulated. For this purpose, the concept of "interface of political control and information" is introduced. The article shows that the "interface of political control and information" is a common field of interaction between the leader and the environment. The environment is understood as the institutions of government, the successors of the leader, stakeholders, various social segments of society, the media. The thesis is substantiated that new political realities are actually spontaneously formed in the field of interaction between the leader-head of the state. More generally, new political realities, new meanings. The author considers it more appropriate to consider the role of the personality of the political leader-head of state in modern conditions (pandemic and post-pandemic periods) in the light of this concept. To substantiate this thesis, the author analyzes the global political situation. Considers some of the political-theoretical models of these processes, put forward in recent years. In the context of the results obtained, the activity of some leaders of the South Caucasian countries is analyzed. The

scientific goal of the article is that, given the new situation of the pandemic period, the realities of global geopolitics and politics, to analyze the role of a political leader in leadership.

**Methodology.** A synthesis of integrative and interdisciplinary methodology is used.

**Method.** The method of interaction personality-environment is applied

Scientific novelty. We introduce the concept of "interface of political control and information" in the context of new searches for political science researchers of the role of personality in leadership. "Interface of political management and information" is a zone of interaction between the leader-head of state and society as a whole, through management institutions, supporters, stakeholders, political parties, the media, where new political realities (new meanings) are formed. We put forward the thesis that it is in this zone that a more concrete picture of the role of the individual in leadership is formed.

**Keywords:** leader, personality, global politics, pandemic, interface, new political realities, new meanings, positive political leader, transformation

**Göndərilib: 28.12.21** **Qəbul edilib: 22.02.22**